***XX** əsrin son 30 ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik bilavasitə dünya şöhrətli dövlət və siyasət xadimi, çoxəsrlik ictimai-siyasi tariximizdə ilk dəfə ümummilli lider statusu qazanmış Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Ulu öndər 1969-cu ildən Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etmiş, 1993-cü ildən isə 10 il müddətində müstəqil Azərbaycan Respublikasının dövlət başçısı – Prezidenti olmuşdur.*

# Azərbaycanı müstəqillik epoxasına hazırlamış tarixi intibah



***Tarixdə nadir hadisələrdəndir ki, Azərbaycan xalqının qüdrətli oğlu Heydər Əliyev iki fərqli ictimai-siyasi quruluşda öz ölkəsinə rəhbərlik etmişdir. Ulu öndər hər iki sistemdə görkəmli dövlət və siyasət xadimi, fenomenal qurucu rəhbər kimi Azərbaycanın iqtisadiyyatını möhkəmlətmiş, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmış, milli mənafeyini, mədəniyyət və mənəviyyatını qorumuş və inkişaf etdirmişdir.***

1969-cu ilin 14 iyunundan başlamış birinci dövrdə – sovet Azərbaycanına rəhbərlik illərində əsl xalq lideri, Vətən təəssübkeşi Heydər Əliyev respublikamızı keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdən birinə çıxartmış, sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır. İstər sovetlər birliyi, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə xalqına, Vətəninə sədaqətlə, ləyaqətlə xidmət Heydər Əliyevin mübarizə devizi və həyat idealı olmuşdur. Ulu öndər əmək və ictimai fəaliyyətinin ilk dövrlərindən özünün şəxsi keyfiyyətləri ilə fərqlənmiş, ən yüksək rəhbərlik səviyyəsinə qalxmışdır.

Heydər Əliyev əmək fəaliyyətinə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində başlamışdı. Onun yüksək işgüzarlığı və icraçılıq qabiliyyəti tezliklə aşkar olmuşdu. Naxçıvan MSSR Vilayət Partiya Komitəsi ona təhlükəsizlik orqanlarına işləməyə zəmanət vermişdi. Gənc çekist 1944-cü ildən bu orqanda fəaliyyətini uğurla davam etdirmiş, xidməti vəzifəsini daim layiqincə yerinə yetirmişdi.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycanı müstəqillik epoxasına hazırlamış tarixi intibah



*(əvvəli 1-ci səhifədə)*

Gələcəyin milli lideri 1950-ci ildə Leninqradda təhlükəsizlik orqanının ali Məktəbini bitirdikdən sonra Bakıda işləmiş, Dövlət Təhlükəsizliyi Komitəsində əks-kəşfiyyat şöbəsində bölmə rəisi təyin edilmişdi. Qeyd etmək lazımdır ki, o vaxt ilk dəfə idi ki, Heydər Əliyev azərbaycanlı kimi bölmə rəisi olmuşdu. 1953-cü ilin sonunda o, şöbə rəisi təyin olunmuşdu – bu da nadir hadisə idi. Şöbə rəisi kimi o, böyük çətinliklərlə qarşılaşsa da, bu orqanda sağlamlaşma aparmaq, yeni gənc kadrları işə qəbul etmək sahəsində böyük fəallıq göstərmişdi. Məhz onun iştirakı və rəhbərliyi ilə 1953-cü ildən təhlükəsizlik orqanlarında təmizləmə, milli kadrların irəli çəkilməsi prosesi başlamışdı. 1960-cı ildə təhlükəsizlik orqanlarında aparılan ixtisar nəticəsində 5 şöbə birləşdirilmiş və Heydər Əliyev bu şöbəyə rəis təyin edilmişdi. Onun bilavasitə iştirakı ilə o zaman gənc kadrlar irəli çəkilmiş, DTK-da rəhbər vəzifələrdə azərbaycanlıların sayı artmışdı.

Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə bu qurumun sədri vəzifəsinə irəli çəkilmişdi. Təhlükəsizlik Komitəsindəki fəaliyyəti zamanı o, Azərbaycan xalqının mənafeyini qorumağa, onun açıqfikirli övladlarını əsassız təqiblərdən xilas etməyə çalışmışdı. Heydər Əliyev Təhlükəsizlik Komitəsində rəhbər vəzifədə işlədiyi vaxtda da milli xüsusiyyətlərin, milli mentalitetin, milli şüurun inkişaf etdirilməsinin təmin edilməsinə xüsusi əhəmiyyət vermişdi.

1969-cu il iyulun 14-də Azərbaycan xalqının tarixində onun sonrakı onilliklər boyu taleyini, inkişaf yolunu müəyyən etmiş, ciddi dönüş mərhələsinin başlanğıcı olmuş siyasi hadisə baş vermişdi. Sürətli karyerasının təbii nəticəsi olaraq, nadir təşkilatçılıq qabiliyyəti və hədsiz enerjisi ilə Azərbaycan rəhbərliyində xüsusi seçilmiş Heydər Əliyev respublikanın ali siyasi lideri səviyyəsinə yüksəlmişdi. Həmin gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirilmiş və Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi seşilmişdi.

Plenumda keçmiş Sov.İKP MK-nın katibi İ.Kapitonov və Sov.İKP MK-nın bölmə müdiri Y.Starsev iştirak etmişdi. İ.Kapitonov çıxışında qeyd etmişdi ki, Azərbaycan yüksək inkişaf etmiş sənaye ölkəsidir. Çoxşaxəli kənd təsərrüfatı strukturuna malikdir. Böyük miqyasda tikinti işləri aparılır. Elm və mədəniyyət inkişaf edir. Bir sözlə, respublikanın təsərrüfatı böyükdür, eyni zamanda, olduqca mürəkkəbdir. Respublikada bir çox problemlər, həll edilməmiş vəzifələr, çətinliklər və çatışmazlıqlar vardır. Bütün bunlar və Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundovun səhhətini nəzərə alaraq Sov.İKP-nin Mərkəzi Komitəsi onun xahişini yerinə yetirərək başqa işə keçirilməsini qərara almışdır.

Azərbaycan Kommunist Partiyasının 1969-cu il 14 iyul tarixli plenumu respublika partiya təşkilatının birinci katibliyinə namizəd məsələsini də müzakirə etmişdi. Bu məsələ o vaxta qədər Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində xeyli müddət və hərtərəfli araşdırılmışdı. Birinci katib vəzifəsinə bir çox namizəd irəli sürülmüş və müzakirə edilmişdi. Ciddi və hərtərəfli öyrənildikdən sonra Sov.İKP Mərkəzi Komitəsi Heydər Əliyevin namizədliyi üzərində dayanmışdı. İ.Kapitonov plenum üzvlərinin Heydər Əliyevi yaxşı tanıdıqlarını nəzərə alaraq onun haqqında Mərkəzi Komitənin fikrini çatdıraraq demişdi: "Heydər Əliyev yoldaş obyektiv olaraq üstünlüyə malikdir. Ən böyük üstünlüyü ondadır ki, o, hələ cavandır. 1923-cü ildə anadan olub. Onun 46 yaşı vardır. Birinci katib vəzifəsinə 3 il, 5 il müddətinə yox, daha uzun müddətə seçmək lazımdır. Əliyev yoldaş bizim respublika partiya təşkilatında fəal iştirak edir. Partiyanın Mərkəzi Komitəsinin tərkibinə daxildir, respublika Ali Sovetinin üzvüdür. Əliyev yoldaş əməli fəaliyyətində yetkin siyasi savadlı işçi kimi özünü göstərmişdir. Sov.İKP Mərkəzi Komitəsində də biz onu belə qiymətləndiririk, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bürosunda da sizin yoldaşlar belə qiymətləndirirlər. O, yaxşı təşkilatçıdır, adamlarla işləməyi bacarır, bununla yanaşı, özünə və başqalarına qarşı tələbkardır. Sizə məlumat vermək istəyirəm ki, yoldaş Əliyev Sov.İKP MK Siyasi Bürosunun iclasına dəvət edilmiş, onunla söhbət aparılmışdır".

Bütün bunları nəzərə alaraq, Sov.İKP-nin Siyasi Bürosu "Azərbaycan KP-nin Mərkəzi Komitəsinin Heydər Əliyevin KP MK-nın birinci katibi və büro üzvü seçilməsi barədə" təklifini plenumun müzakirəsinə vermişdi. Plenuma sədrlik edən Azərbaycan KP MK-nın ikinci katibi S.Kozlov bu məsələ ilə bağlı heç kəsin sualı olmadığını bildirdikdən sonra sözü sabiq birinci katib Vəli Axundova vermişdi. O özünün xəstələndiyini, 3 aya yaxın Moskvada xəstəxanada yatdığını qeyd etmiş və səhhətinin kəskinləşməsi ilə bağlı vəzifədən azad edilməsi haqqında xahişlə müraciət edərək, elmi işlə məşğul olmaq istədiyini bildirmişdi.

Respublikaya 10 il başçılıq edən Vəli Axundov plenumda Heydər Əliyev haqqında belə söyləmişdi: "Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə imkan verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı yüksək intellektə malikdir. O, bütün kadrlara qarşı eyni dərəcədə düzgün mövqedədir, çünki kifayət qədər obyektiv, vicdanlı və layiqli insandır. Dzerjinski demişdi ki, "çekistin" isti ürəyi, aydın ağlı, təmiz əli olmalıdır. Bütün bu keyfiyyətlər Heydər Əliyevə məxsusdur və mən əminəm ki, respublikaya başçılıq edərkən o, bu cəhətlərindən istifadə edərək respublikanın gözəl adət-ənənələrini layiqincə davam etdirəcək".

Plenum Vəli Axundovun xahişini təmin etmişdi, səhhətini və elmi işlərlə məşğul olmaq arzusunu nəzərə alıb, (artıq o, Respublika Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə seçilmişdi) onu Azərbaycan KP-nın rəhbərliyindən azad etmişdi. Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilməsi məsələsi səsverməyə qoyulmuşdu. Onun, eyni zamanda, Azərbaycan KP MK üzvlüyünə namizədlikdən MK-nın üzvü seçilmək məsələsinə də baxılmışdı.

Plenum yekdilliklə Heydər Əliyevə səs vermiş və o, AKP MK-nın birinci katibi vəzifəsinə seçilmişdi. Plenumda çıxış edən Heydər Əliyev göstərmişdi ki, o, tam məsuliyyətlə qarşıda duran çətin və mürəkkəb vəzifələri anlayır və öz əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcək: "Mən bütün büro üzvlərinin köməyinə ümid edirəm və hesab edirəm ki, birgə, mehriban əməkdaşlığımız gələcək uğurlarımıza gözəl zəmin yaradacaqdır".

**Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il tarixli plenumu yekdilliklə qərara almışdı:**

1. V.Y.Axundovun səhhətinə görə və Azərbaycan SSR EA-nın vitse-prezidenti seçilməsi ilə əlaqədar olaraq onun Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad edilməsi haqqında xahişi təmin edilsin.
2. Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin üzvlüyünə namizədlikdən üzvlüyünə keçirilsin.
3. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və büro üzvü seçilsin.
4. Sov.İKP Mərkəzi Komitəsindən bu qərarın təsdiq edilməsi xahiş edilsin.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev çıxışında ona böyük etimad göstərilməsinə görə, Sov.İKP MK-ya, onun Baş katibi L.Brejnevə və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə səmimi təşəkkürünü bildirmişdi. Plenumda Heydər Əliyev daha sonra demişdi: "Bu vəzifəyə keçməklə mən üzərimə düşən məsuliyyəti dərk edirəm, qarşımda duran vəzifələrin mürəkkəbliyini və çətinliyini başa düşərək əmin etmək istəyirəm ki, bu böyük və yüksək etimadı doğrultmaq üçün əlimdən gələn bütün imkanlarımdan istifadə edəcəyəm. Bununla mən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bütün tərkibinə, MK-nın büro üzvlərinə, respublikamızın bütün rəhbər partiya, sovet və təsərrüfat işçilərinin köməkliyinə və müdafiəsinə arxalanıram və ümid edirəm. Hesab edirəm ki, birgə səmimi fəal işimiz bizim gələcək müvəffəqiyyətlərimizin rəhni olacaqdır". Heydər Əliyevin bu ümidverici və səmimi çıxışı alqışlarla qarşılanmışdı.

Respublikanın yeni ali rəhbəri kimi Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilən vaxt yerli iqtisadiyyat dərin iqtisadi böhran mərhələsinə qədəm qoymuşdu. 60-cı illərdə iqtisadiyyatın inkişafında mənfi meyllər özünü göstərirdi. Bir sıra obyektiv və subyektiv səbəblərə görə Azərbaycanın sosial-iqtisadi inkişafdan geridə qalması artıq nəzərə çarpırdı. Bir çox sahələrdə– milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə görə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə görə, ictimai əməyin məhsuldarlığına görə, respublika ümumittifaq göstəricilərindən geridə qalırdı. 1965-ci ildə 1940-cı ilə nisbətən Azərbaycanda məcmu ictimai məhsul 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin ittifaq dövləti üzrə bu göstəricilər müvafiq surətdə 5,7 və 7,9 dəfəyə çatırdı. Azərbaycan SSR milli gəlirin həcminə görə SSRİ səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı.

Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində işlərin fasiləsiz aparılması pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarıb tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsip etibarı ilə yeni konseptual proqram işlənməsi, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodlar tətbiq edilməsi və i.a. zəruri vəzifələr qarşıda dururdu. Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində güclü, bacarıqlı təşkilatçı, cəsarətli bir rəhbərə ehtiyac var idi. Belə bir rəhbər məhz Heydər Əliyev oldu.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir ay sonra Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunu keçirmiş və geniş, analitik məruzə ilə çıxış etmişdi. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil edilmiş və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar bəyan edilmişdi. Bu proqram məruzə bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirmişdi.

Bu nöqsanların nəticəsində Azərbaycanda 1966–1970-ci illərdə bütünlüklə sənaye üzrə müəyyən edilmiş vəzifələr yerinə yetirilməmişdi. Bu dövrdə əmək məhsuldarlığının azalması hesabına artım norması xeyli aşağı düşmüşdü. Məsələn, yeddiillikdə Azərbaycan sənayesində əmək məhsuldarlığı nəzərdə tutulan 48,7 faiz əvəzinə, 26,8 faiz artmışdı.

1969-cu ildən əvvəlki dövrdə Azərbaycanın kənd təsərrüfatı olduqca geridə qalmış vəziyyətdə idi. Azərbaycan SSR istehsal planlarının yerinə yetirilməsi, kənd təsərrüfatı bitkilərinin, heyvandarlığın məhsuldarlığı, texnikadan və suvarılan torpaqlardan istifadə edilməsi, əmək məhsuldarlığı, rentabellik cəhətdən SSRİ-də ən aşağı yerlərdən birini tuturdu. Hələ 1969-cu ilin avqustunda Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Azərbaycan KP MK-nın ilk plenumunda respublika kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil edilmiş, sahəyə rəhbərlikdə, aqrar siyasətin həyata keçirilməsində böyük nöqsanlar və çatışmazlıqlar açıqlanmış, kənd təsərrüfatının inkişaf etdirilməsinin perspektiv planları müəyyən edilmişdi.

Pespublikanın yeni rəhbəri Heydər Əliyev sənaye sahəsində də mövcud nöqsanları aşkara çıxarmış və onun fasiləsiz, möhkəm və daha səmərəli inkişaf xətti müəyyən edilmişdi. Kənd təsərrüfatının inkişaf etdirilməsində də mövcud imkanlardan lazımınca istifadə edilməmişdi. Bunun nəticəsində kənd təsərrüfatında planların yerinə yetirilməsində nöqsanlara yol verilmişdi. 1966–1970-ci illər ərzində ümumi kənd təsərrüfatı məhsulunun artımı nəzərdə tutulan 29 faiz əvəzinə, vur-tut 23 faiz olmuşdu. Respublikada kənd təsərrüfatının geriliyinin səbəbləri Azərbaycan KP MK-nın 1969-cu ilin avqust plenumunda prinsipiallıqla aşkar edilmişdi.

Azərbaycanın yeni lideri Heydər Əliyev 1969–1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın plenumlarında, fəallar yığıncaqlarında, toplantılarda və başqa yığıncaqlarda məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil etmiş və qarşıya yeni vəzifələr qoymuşdu. Həmin illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi olmuşdu. Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyulmuşdu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı 1970–80-ci illərdə yüksək müvəffəqiyyətlərin səfərbəredici və təkanverici qüvvəsi olmuşdu.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin respublika partiya təşkilatının XXVIII qurultayına (10–12 mart 1971-ci il) hesabat məruzəsində respublikadakı vəziyyətin dərin təhlili verilmişdi. Təsərrüfat və mədəni quruculuq təcrübəsində, kadrların seçilib yerləşdirilməsində bir sıra ciddi çatışmazlıqlar və səhvlər meydana çıxarılmışdı. Qurultayın qətnaməsində deyilirdi: "Partiya, sovet və təsərrüfat orqanlarının fəaliyyətində yol verilmiş böyük nöqsanlar, təsərrüfat və mədəniyyət quruculuğu işlərində, kadrların seçilməsində və yerləşdirilməsində respublikanın əvvəlki rəhbərliyi tərəfindən buraxılmış ciddi səhvlər nəticəsində respublika iqtisadiyyatı uzun müddət ləng, ittifaq üzrə orta sürətdən xeyli geri qalan bir sürətlə inkişaf etmişdir; sənaye və kənd təsərrüfatı istehsalının tam bir sıra əsas göstəriciləri üzrə Azərbaycan SSR ölkədə axırıncı yerlərdə olmuşdur".

Qətnamədə qarşıda duran vəzifələr də dəqiq və konret müəyyən edilmişdi. Hesabat məruzəsi və məruzə ətrafında çıxışlarda, Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunun və şəxsən Heydər Əliyevin həmin plenumda, habelə sonrakı çıxış və nitqlərində respublikanın iqtisadi inkişafında buraxılmış səhvlərin səbəblərinin aşkar edilməsi və respublikamızın xalq təsərrüfatına, ictimai-siyasi həyatına rəhbərlik edilməsi sahəsində yeni münasibət işlənib hazırlanmasının çox mühüm əhəmiyyət kəsb etdiyi yekdilliklə bəyanılmişdi. Xüsusi olaraq qeyd edilmişdi ki, Mərkəzi Komitənin avqust (1969-cu il) plenumundan sonra Heydər Əliyevin rəhbərliyi ilə MK-nın prinsipial bir xətt götürdüyü, kadrlara qarşı tələbkarlığın artırılması respublikanın həyatında böyük canlanmaya səbəb olmuşdur.

Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayında MK-nın birinci katibi Heydər Əliyevin hesabat məruzəsində respublikada kənd təsərrüfatındakı geriliyin səbəbləri açıqlanmışdı. Hesabat məruzəsində deyilirdi: "Bu səbəblər, hər şeydən əvvəl, ondan ibarətdir ki, bir çox illər ərzində respublikanın kənd təsərrüfatına rəhbərlik işində ciddi təşkilati və aqrotexniki səhvlərə və qüsurlara yol verilirdi. Prinsipial məsələlərin, kənd təsərrüfatı problemlərinin həlli elmi zəminə əsaslanmır, çox vaxt özbaşına çıxarılan qərarların nəticəsi olurdu. Bunun nəticəsində kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və onun sahələrinin yerləşdirilməsi işi kifayət qədər düşünülmədən, tələsik və müvafiq hazırlıq aparılmadan görülürdü ki, bu da bir sıra çox mühüm kənd təsərrüfatı məhsulları istehsalının həcminin xeyli azalmasına gətirib çıxarırdı".

Respublikada kənd təsərrüfatının əsas sahəsi olan pambıq, dənli bitkilər əkin sahələri əsassız surətdə azaldılmışdı. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev son 10–15 il ərzində respublikada pambıq istehsalının xeyli azaldığını göstərirdi. Belə ki, 1961–1965-ci illərdə orta illik pambıq istehsalı 339 min ton idisə, 1966–1970-ci illərdə 328 min ton olmuşdu. 1973-cü ilin sentyabrında Özbəkistanın paytaxtı Daşkənddə Sovetlər İttifaqının altı pambıqçılıq respublikasının fəallar yığıncağı keçirilmişdi. Azərbaycan rəhbəri Heydər Əliyev çıxışında respublikada pambıqçılığın vəziyyətini təhlil etmiş, imkanları bir də nəzərdən keçirərək 450 min ton pambıq istehsal etmək imkanı olduğunu bildirmişdi. Sov.İKP MK-nın Baş katibi L.Brejnev Heydər Əliyevin pambıqçılığı inkişaf etdirmək məqsədilə həyata keçirdiyi tədbirlərə yüksək qiymət vermişdi. O, Heydər Əliyevin çıxışına cavab olaraq, Azərbaycanın götürdüyü artırılmış öhdəliklə əlaqədar demişdi: "Hələ bu yaxınlaradək Azərbaycanda əvvəlki rəhbərlər pambığa xor baxmaq əhval-ruhiyyəsi yaradırdılar. İndi Azərbaycan bu işi yüksəyə qaldırmışdır".

Artıq ardıcıl olaraq respublikada geridə qalan təsərrüfat sahələrinin inkişaf etdirilməsinin düzgün elmi yolları müəyyən edilirdi. Heydər Əliyev elmin nailiyyətlərinin və kənd təsərrüfatında struktur dəyişiklikləri edilməsi, yeni ehtiyat mənbələrinin meydana çıxarılması və istifadə edilməsi yolu ilə kənd təsərrüfatında geriliyə son qoyulmasına, onun inkişaf etdirilməsinə nail olurdu. O, kənd təsərrüfatı məhsulları istehsalında böyük imkanlara malik olan pambıqçılığın geridə qalmasından ciddi narahat olur, bu sahənin inkişaf etdirilməsi üçün əməli tədbirlər həyata keçirirdi.

Heydər Əliyev bu məsələdən danışarkən deyirdi: "Pambıq sahələrindən səmərəli istifadə edilmədiyindən kəndli ondan lazımi mənfəət götürə bilmirdi. Bu işi alimlərlə, iqtisadçılarla götür-qoy etdim, məlum oldu ki, Azərbaycanın bir neçə rayonunda pambıq istehsalı çox səmərəlidir. Amma rayon da var ki, pambıq xeyir vermir, onu başqa bitkilərlə əvəz etmək lazımdır. Məsələn, 1969-cu ildə 30–32 rayonda pambıq əkilirdi, 1982-ci ildə isə cəmi 18 rayonda".

Vəziyyəti elmi əsaslarla aydınlaşdırdıqda məlum olmuşdu ki, bəzi rayonlarda pambıqçılıq səmərəli olmadığı üçün orada pambıq əkilməsi məqsədəuyğun deyil, bəzi rayonlarda isə pambıqçılıq səmərəli olmasına baxmayaraq, torpaqlardan lazımınca istifadə edilmir, torpaqların hamısı əkilmir. Məsələn, pambıqçılıq üçün daha yararlı, geniş torpaq sahəsi olan Sabirabad rayonunda torpaq sahələrindən səmərəli istifadə edilmirdi. Ona görə də 1969–1971-ci illərdə bu rayonda 20 min ton pambıq istehsal edilirdi. Xeyli boş torpaqlardan istifadə edilmirdi. Heydər Əliyevin göstərişi ilə istifadə edilməyən boş torpaqlar əkilməyə başlayandan sonra 80–90 min ton pambıq istehsal edildi. Yaxud Zəngilan və başqa rayonlarda isə torpaqlar pambıqçılıq üçün səmərəli deyildi. Ona görə də həmin rayonlardan pambıqçılıq başqa səmərə verən sahə ilə əvəz edildi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev kənd təsərrüfatını inkişaf etdirməklə Azərbaycanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsulları becərilməsinə xüsusi əhəmiyyət verirdi. Məsələn, Lənkəran zonasında ən tez yetişən, ən faraş tərəvəz məhsulları yetişdirilməsi nəticəsində bu cənub bölgəsi "ümumittifaq bostanı" adını almışdı . Bu, zonanın inkişafında, əhalinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayırdı.

1970-ci ilin oktyabr ayında Azərbaycan SSR-nin və Azərbaycan Kommunist Partiyasının 50 illiyi münasibətilə təntənəli iclasında iştirak etmək üçün SSRİ rəhbəri L.Brejnev Bakıya gəlmiş, Azərbaycanda başlanan geniş miqyaslı işlərlə ətraflı tanış olmuşdu. Sov.İKP MK-nın Baş katibi 1970-ci il oktyabrın 2-də Bakıda Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyasının 50 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışında 1969 – 1970-ci illərdə görülən işlərə yüksək qiymət vermişdi.

Heydər Əliyevin respublikada apardığı genişmiqyaslı quruculuq işləri qısa müddətdə özünə böyük inam yaratmış, mərkəzin diqqətini Azərbaycana yönəltmişdi. Beləliklə, Azərbaycanda kənd təsərrüfatı istehsalı get-gedə ixtisaslaşdırılmış və rayonlaşdırılmışdı. Bu da kənd təsərrüfatının yüksəlişini təmin edən əsas amillərdən olmuşdu. Bundan başqa, həmin dövrdə mexanikləşdirmə, meliorasiya və kimyalaşdırma da kənd təsərrüfatının inkişafında əsas amillərdən idi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev kənd təsərrüfatında yaranmış vəziyyəti dərindən araşdırıb nöqsanların aradan qaldırılmasının, planların həyata keçirilməsinin təxirəsalınmaz bir məsələ olduğunu önə çəkərək, Sov.İKP Mərkəzi Komitəsinə müraciət etmişdi. Heydər Əliyevin təkliflərinə əsasən Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti 1970-ci il iyulun 23-də "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək üzrə tədbirlər haqqında" qərar qəbul etdirmişdi. Bu qərarda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi və bununla yanaşı, Heydər Əliyevin kənd təsərrüfatının inkişafına daim qayğısı nəticəsində, artıq 1975-ci ildə Azərbaycan kənd təsərrüfatı sahəsində ciddi yüksəliş baş vermişdi. 1975-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1 milyard 572 milyon manat təşkil edirdi. 1969-cu ildə isə bu rəqəm 999 milyon manat idi. Deməli, 1969-cu ilə nisbətən artım 57 faiz olmuşdu.

Bu dövrə kimi toplanmış təcrübəni ümumiləşdirərək və qarşıdakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək imkanlarını təhlil edərək Heydər Əliyev yenidən Azərbaycan KP Mərkəzi Komitəsi adından respublikanın kənd təsərrüfatını daha da inkişaf etdirmək haqqında Sov.İKP Mərkəzi Komitəsinə müraciət etmişdi. 1975-ci il iyulun 9-da Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında" qərar qəbul etmişdi.

1976-cı il iyulun 27-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "1976-1980-ci illərdə respublikanın ayrı-ayrı sənaye sahələrinin inkişafına dair Azərbaycan Kommunist Partiyası MK-nın təklifinə baxılmasının yekunları haqqında", 1979-cu il fevralın 22-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması və üzümçülüyün və şərabçılığın inkişafı haqqında" qərarı qəbul edilmişdi. Bu qərarların 1970–80-ci illərdə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyəti olmuşdu.

Heydər Əliyevin məqsədyönlü təşkilatçılığı və rəhbərliyi sayəsində Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sahədə dinamik sıçrayışlı inkişaf meydana gəlmişdi və bu sürət plan tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etmişdi. Azərbaycan iqtisadiyyatının yenidən formalaşması və inkişafı başlanmışdı.

Heydər Əliyevin rəhbərliyi, təşkilatçılığı sayəsində l970-ci ildən Azərbaycan həyatında əsaslı sıçrayış dövrü başlanmışdı. Bu onun qızğın fəaliyyətinin nəticəsi idi. 1970-ci il start ili olmuşdu. Şəhər və kənd əməkçiləri illik planı vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdilər. 1970-ci ildə respublikada milli gəlirin artım sürəti əvvəlki ildəkindən dörd dəfədən də yüksək, 1966–1969-cu illərdəki göstəricilərdən, təqribən, 2 dəfə artıq olmuşdu. Respublika sənayesi 1970-ci ilin planını vaxtından əvvəl yerinə yetirərək, plandan əlavə 10 milyonlarla manatlıq məhsul buraxmışdı.

Sənaye məhsulunun istehsalı 8,6 faiz artmışdı ki, bu da əvvəlki dörd il ərzində orta illik artım sürətindən bir dəfə yarım çox idi. 1970-ci ildə Bakı sənayesinin müvəffəqiyyətli yekunları nəticəsində əvvəlki illərdə də yerinə yetirilməyən tapşırıqlar ödənilmişdi və sənaye istehsalının həcminə dair beşilliyin tapşırıqları dekabrın 20-dək yerinə yetirilmişdi. Respublikanın ikinci böyük sənaye şəhəri olan Kirovabad (Gəncə) sənayesi 1970-ci il planını vaxtından əvvəl yerinə yetirmişdi. Tapşırıqdan əlavə, 13,6 milyon manatlıq məhsul satılmışdı.

Respublikada dövlətə əsas kənd təsərrüfatı məhsulları satışına dair planlar vaxtından əvvəl yerinə yetirilmişdi. 1970-ci ildə 1969-cu ildəkindən 106 milyon manatdan artıq məhsul istehsal edilmişdi. 1970-ci ildə ümumi kənd təsərrüfatı məhsulu 15,4 faiz artmışdı, halbuki 1966-1969-cu illərdə artım orta hesabla 1,9 faiz olmuşdu. 1970-ci ildə respublikada pambıqçılıq tarixində ilk dəfə olaraq oktyabrın birinci yarısında pambıq tədarükü planı yerinə yetirilmişdi. Azərbaycan pambıqçıları 335 min ton pambıq təhvil vermişdilər. Pambığın məhsuldarlığı hər hektardan 17,4 sentnerə, dənli bitkilərin məhsuldarlığı 12 sentnerə çatdırımışdı . Bu məhsuldarlıq respublikada son 13 ildə pambıqçılıqda, son 20 ildə isə dənli bitkilər istehsalında olmamışdı.

*(ardı var)*

***İradə HÜSEYNOVA,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, Əməkdar müəllim***